

■ XOSROV BARIŞAN

# İlham Qəhrəmanlının təqdimatında

*Xosrov Barışan 29 yanvar 1983-cü ildə Təbriz şəhərində dünyaya göz açıb. Şəbüstər universitetini bitirib. Təbrizdə və Şəbüstərdə fəaliyyət göstərən ədəbi birliklərin üzvü olub. İlk şeir kitabı "Yağış saniyəsi" adlanır. İndiyə qədər uşaqlar üçün yazdığı dörd kitabı yayımlanıb.*

*Hazırda "YAŞAR QƏLƏM TƏBRİZ" adlı nəşriyyatın rəhbəridir.*

## QƏBİRİSTAN

Sənin eşqini də
quyladım ürəyimə.
Aa... ah,
Necə də yaman
ağrı verir insana
bir qəbiristanlığı öz içində daşımaq.

## SƏN GETDİN

Sən getdin -
bir pianoçunun barmaqları qırıldı,
Sən getdin -
bir hambalın beli büküldü.

Sən getdin -
bir sürücünün kor oldu gözləri,
Sən getdin
bütün bu olanlar adiləşdi -
və kimsə artıq şair olmadı.

## HƏLƏ DEMƏ...

Hələ saçlarını demə...
Saçların Təbrizin küçələridir!
Pərişan, tikanlı, dolaşıq və qara...
Dolayıram saçlarını ayaqlarıma.
Mən adam olmadım ki!
Küçələrdə yalqız gəzən həsrətəm!
Ah... mənim şeirim küçələrin ortasında yaradılır
bağrılaraq.

Hələ gözlərini demə...
Sənin o santrifiyuj[1] gözlərin...
Gözlərin qatilim olacaqdır!
Söylə hansı fəlsəfə zənginlətmiş nifrətlə gözlərini!?
Ömrümü xərclədim gözlərini sevgiylə doldurmağa!
Nə yazıq ki yaşamaq o göy gözlərində göyərmədi.
Nə yazıq ki gözlərin dolacaq topraqla.
Ah... baxışların bomb.., bomb.., bomb.., bomba!
Ürəyim partlayır vaxsey!
Sanki kainat yaradılır.

Hələ burnunu demə...
Məhkum olduğum dünyamdır burnun!
Əməllə gözəlləşən
Genetik çirkin bir burun!
Anlamadın, qanmadın, qavramadın
Çirkinliklər gözəllikləri anlamaq üçün yaradılıb.
Üstümə asqırma.
Neft asqırırsan, neft!
Püfff...f nəfəsin kapitalist qoxuyur sənin.
Məni yandırıb yaxarkən qazancın nədir?
Söylə.
Alov... alov... aydınlanıb, aydınladıram.
Şairəm axı.

Sanma sənsiz yaşayıram, sevgilim,
Çuğlanıram təkcə günlərə kəfən kimi
Və dalğalanıram qurudulan Urmu gölü tək.
Ah... hər yerişimdə
sevgimin daşı ağır olub düşür başıma!
Daşdır ürəyin, daş!
Başa düşüb qana bilməzsən!
Addımlar altında əzilən ürəyim kimi
Qanaya bilməzsən!
Burax məni diriltməyin səf-səfəsinə
Davranışların divardır, divar!
Bu kimsəsiz, ucsuz gecələrdə
yol göstərən ulduzum ola bilməzsən.

*[1]-sentrafuq, uranı zənginləşdirən qurğu*

## GECƏNİN DALINDA DURMA, GƏL.

Gecənin dalında durma, gəl.
Pəncərələrə mıxlanır gözlərim!
Paslı...
Paslı...
Paslanıram!
Bütün saatların daşlarını qurtarmışam.
Gecənin dalında durma, gəl.
Gecənin qapıları çox.
Gecənin gözləri yox.
Gözlərim səninkidir,
Yumsan öləcəyəm
Gecədir
İntiharlar nəfəsi.
Gecədir
Yalqızlığın yorğun səsi.
Doğulacağam baxışların burulğanında.
Sən demə öncədən görmüşəm taleyimi şeirlərimdə!
Gecənin dalında durma, gəl.
Küçə telefonlarında susğunluğum;
Dənizlər yaradılır ürəyinin çırpıntısında.
Söyüşlərin alovu caydırmaz məni.
Çirkin qarabalığam -
Dənizdən bir az göy üzü yağsa,
Yoxluğunun qaranlığında boğulacağam.
Qıp-qırmızıdır, qız, gözlərin!
Gecənin dalında durma, gəl.
Bir zindan doğacaqdım mən,
Bir hörümçək,
Bir ışıq.
İşığa qaçsam təsadüf olacaq,
Sığınsam əllərinə
Tora düşəcəyəm.
Gözlərin beynimdə gedir kuf...
Kuf...
Kuf...
Kufuldayır[1] gözlərin.
Gecənin dalında durma, gəl.
Nədəndir yorğan-döşəyim xəncərindir?!
Nədəndir yaşamaq cinayət olur?!
Nədəndir həyat doğulur cinayətdən?!
Və nədəndir eşqimiz anadır silahlara?!
Gecənin allığına basılıram.
Gecənin dalında durma, gəl.
Sənə tamamlanmamış bir şeir kimi bağlandım.
Kəlmə-kəlmə sevdim varlığını.
Mən şair olmadım ki
Ayaqlarım səni yazdılar!
Sən corab deyilsən ki...
Ağlama...
Çözə bilmirəm inqilabların düyümünü!
Mən axına qarşı üzürəm.
Göz yaşlarında boğularam.
Xoşbəxtlik açılan pəncərədir.
Səni bitirmədən
Ölməkdən yaman qorxuram.
Gecənin dalında durma, gəl.
Məni kimsə duymaz,
Səsim ağır.
Məni kimsə qaldırmaz,
Səsim yağır.
Radarlardan kənardır yolum yavrum!
Gecənin əxlaqsızlığıdır şəhərlər.
İtmə, mənə bax.
Gecənin dalında durma, gəl.

*[1]-burada yellənmək mənasında*

## YÜK

*(Leylaya)*

Bir ruhu
iki bədəndə
daşıyacağıq demişdim.
Demə bəs
o
ruhsuz idi!
İndisə yüküm ağır -
bir bədəndə
iki ruhu
daşıyıram!

## FƏRQANƏ MEHDİYEVAYA

Mən hər gecə
Şeirin şorunu çıxardıb
Suyunu süzürəm izlərimə.
Gözləriniz aydınlanır.
Və soyuram ürəyimi
Adəm cənnətdən qovulur;
Gözləriniz yaşlanır.
Məni belə qərib hallar tapar, Fərqanə,
Belə əcaib hallar...
Məni sözcüklər meymun eyləmiş, Fərqanə.
24 saat durmadan
Başımın ətini yeyirlər.
Hansı sözcükdən hansı sözcüyə atılım?!
Hansı gözləri dərim,
Şeirim doğsun mənim?!
Yaman qorxuram, Fərqanə,
Şeirim həmişə uşaq qalır.
Necə insan təkamülə çatsın ki?!
Tanrıya çatmaq üçün
Hansı nərdivanı hansı göyə dayamalıyam?!
Uşaq idim
Anama ulduz dərmək istərdim...
Böyüdüm
Heç qız ulduz sevməyir ki.
Deyir: mən özüm bir ulduzam, ay oğlan.
Və keçir aylar...
Aydan, ucadan
Sənə baxıram,
Özümə baxıram.
Tüstünün yuxarıya qalxdığındanmı
Hər ürəkdə yanğın varsa,
Tüstüsü mənim gözümə gedir.
Darıxmaq yağışları
Elə başlayırlar ki,
Bütün yağışlar darıxır.
Bilirəm duz yeyib duzqabını sındırırlar!
Bizlərsə,
Yaramızdan duz səpirik,
Əlimizin duzu olmasa da
Nəfəsimizin duzu bol olacaq.
Əə...əh, duzun nə yeri var bu şeirdə, Fərqanə?!
Doktorlar yeməyi də belə
Yasaq etmişlər.
Duzun ürəyə zərəri vardır axı.
Halbuki mən
Duzlu bir qız doğacaqdım;
Adını isə "TÜRKAY" qoyacaqdım.
Ürək işçisi olan atasıyla öyünsün..
Sən demə əsil şair
"Urmu gölü"dür.
"Bakı-Təbriz" avtobusları
"Azərbaycan" boyda yalqızlığımdan
keçməyirlər heç.
Dalğalar...
Dalğalar...
Dənizdə can verib
İçimdə canlanırlar.
Sən ağlayırsan...
Mən titrəyirəm...
Yolumuz eyni;
Tordakı kəpənəyin hekayətidir alınyazımız.
Aşkar da olsan
Gizlənəcəksən.
Gizli də olsam,
Aşkarlanacağam.

Ah mən bir düşüncə heykəliyəm
Gözyaşlarımdan yonuluram, Fərqanə.
Mən cənnəti yanmaqda gördüm.
Bu səbəbdən şairik, Fərqanə.
Bəs yaşasın toprağımız.

## AZAD GÖZƏL

Bilirəm hər şair
ən gözəl şeirini yazmadan
Ölümə mübtəla olub
şair olar.
Ancaq sən
azadlıq kimi gözəlsən,
gözəllik kimi azad.
Sən qoşa bilmədiyim
şeirim qədər gözəlsən,
Və düşünə bilmək qədər azad.
Mən isə yalnız şairəm -
Hər an səni yaradıram
Səndən yaranaraq.
Və yalnızlıq yəni
Yazdığın şeirləri yalnız özün oxuyasan...